## MƏTBUAT ÜÇÜN AÇIQLAMA

### Türkiyə Cümhuriyyətinin Azərbaycandakı Səfiri ATİB üzvü şirkətləri ziyarət etdi

**No: 09/07/86**
**03.03.2009**

Türkiyə Cümhuriyyətinin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli Səfiri Hulusi Kılıç, Səfirliyin Ticarət Müşaviri Qazi Bilgin, İqtisadiyyat Müşaviri Cahid Büyüktürk, Şimali Kipr Türk Respublikasının təmsilçisi Zeki Qazioğlu ATİB üzvü şirkətləri ziyarət etdilər. ATİB İdarə Heyətinin sədr müavini Cemal Yangın və İdarə Heyəti üzvü İhsan Fatoğulu da ziyarətlərdə iştirak etmişlər.

İstanbul Çarşı Import Export Ltd, Mozart Kafesi, İSR-Koray MMC, AKAT Inşaat MMC, Hilal Elektrik LTD şirkətlərini ziyarət edən edən qonaqlar şirkətlərin fəaliyyəti ilə maraqlanmışlar.

İstanbul Çarşı Import Export Ltd alüminium fasad və pəncərə sistemləri, pvc qapı pəncərə sistemləri hazırlayır. Şirkət müştərilərinə satış sonrası texniki xidmət də göstərməkdədir. Mozart Kafesi restoran və kafe biznesi ilə məşğuldur. Bakının mərkəzi hissəsində yerləşən Mozart Kafesi Türk və Avropa mətbəxi təklif edir. İSR-Koray MMC hazırda Hilton-Bakı otelinin inşası ilə məşğuldur. AKAT İnşaat MMC 2004-cü ildən tikinti sahəsində fəaliyət göstərən və az müddət olmasına baxmayaraq özünü doğrultmuş bir şirkətdir. 1996-cı ildən başlayaraq Azərbaycanda fəaliyyət göstərən “Hilal Elektrik” şirkəti dünya standartlarına cavab verən keyfiyyətli elektrik məhsulları təklif edir.

Görüşlər zamanı qarşılıqlı fikir mübadiləsi aparılmış, iki ölkə arasındakı potensial əməkdaşlıq imkanları dəyərləndirilmişdir.

Qeyd edək ki, Türkiyə Cümhuriyyətinin Azərbaycandakı Səfirinin digər ATİB üzvü şirkətləri ziyarəti gözlənilir.

Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az
**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATİB-in İctimaiyyətlə Əlaqələr Şöbəsinə istinad edilməsi vacibdir**